**UDC:** 297
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 471
10.33864/2617-751X.2026.v9.i2.264-273

# THE IMPACT OF BALANCE OF POWER ON INTERNATIONAL SECURITY

**Anar Panakhov***

**Abstract.** This article provides a detailed analysis of the historical formation, evolution, and impact of the balance of power in the international relations system on global security. The balance of power refers to the distribution of military, political, and economic capabilities among states in such a way that no state can achieve a hegemonic position, minimizing the risk of dominance within the international system. The study examines its initial emergence as a mechanism to prevent hegemony, its role in maintaining equilibrium in European politics after the Peace of Westphalia, and its gradual expansion from a regional framework to a global dimension. In the 20th century, the balance of power between the USA and the USSR significantly influenced global security, particularly in terms of nuclear deterrence, the formation of military alliances, and ensuring strategic stability. In the 21st century, the characteristics of the balance of power are shaped by technological developments, economic interdependence, diplomatic relations, the role of international organizations, and the rise of regional power centers. In conclusion, the balance of power remains one of the key determinants of the stability of the international system, and future research should explore its specific impacts in greater depth.

**Keywords:** Balance of power, international security, bipolar system, multipolarity, global power centers, realism, neorealism, military balance, diplomacy, global stability

---

* Teacher, Baku State University - Faculty of International Relations and Economics; Baku, Azerbaijan
E-mail: panaxov.anar@mail.ru
https://orcid.org/0009-0003-5418-8408

**To cite this article:** Panakhov, A. [2026]. THE IMPACT OF BALANCE OF POWER ON INTERNATIONAL SECURITY. *"Metafizika" journal, 9*(2), pp.264-273.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.264-273
***Article history:***
**Received**: 12.01.2026 **Revised**: 26.02.2026 **Accepted**: 01.04.2026 **Published**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 297
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 471
10.33864/2617-751X.2026.v9.i2.264-273

# ВЛИЯНИЕ БАЛАНСА СИЛ НА МЕЖДУНАРОДНУЮ БЕЗОПАСНОСТЬ

**Анар Панахов***

**Абстракт.** В данной статье проводится детальный анализ исторического формирования, эволюции и влияния баланса сил в системе международных отношений на глобальную безопасность. Баланс сил подразумевает распределение военной, политической и экономической мощи между государствами таким образом, чтобы ни одно государство не могло занять гегемоническую позицию, минимизируя риск доминирования в международной системе. Рассматривается его первоначальное возникновение как механизма предотвращения гегемонии, роль в поддержании равновесия в европейской политике после Вестфальского мира, а также постепенное расширение от регионального уровня к глобальному. В XX веке баланс сил между США и СССР оказал значительное влияние на глобальную безопасность, особенно в аспектах ядерного сдерживания, формирования военных союзов и обеспечения стратегической стабильности. В XXI веке характеристики баланса сил формируются под влиянием технологического развития, экономической взаимозависимости, дипломатических отношений, роли международных организаций и усиления региональных центров силы. В заключение, баланс сил остается одним из ключевых факторов стабильности международной системы, а будущие исследования должны более глубоко изучить его конкретное влияние.

**Ключевые слова:** Баланс сил, международная безопасность, биполярная система, многополярность, глобальные центры силы, реализм, неореализм, военный баланс, дипломатия, глобальная стабильность

---

* Преподаватель Бакинского Государственного Университета, факультет международных отношений и экономики; Баку, Азербайджан
E-mail: panaxov.anar@mail.ru
https://orcid.org/0009-0003-5418-8408

**Цитировать статью:** Панахов, А. [2026]. ВЛИЯНИЕ БАЛАНСА СИЛ НА МЕЖДУНАРОДНУЮ БЕЗОПАСНОСТЬ. *Журнал «Metafizika»*, *9*(2), c.264-273.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.264-273
***История статьи:***
**Поступила**: 12.01.2026 **Переработана**: 26.02.2026 **Принята**: 01.04.2026 **Опубликована**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 297
**KBT:** 63.3(2)6-6
**MJ №** 471
10.33864/2617-751X.2026.v9.i2.264-273

# QÜVVƏLƏR BALANSININ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ

**Anar Pənahov***

**Abstrakt.** Bu məqalədə beynəlxalq münasibətlər sistemində qüvvələr balansı anlayışının tarixi formalaşması, təkamülü və beynəlxalq təhlükəsizliyə təsiri ətraflı araşdırılır. Qüvvələr balansı dövlətlər arasında hərbi, siyasi və iqtisadi gücün elə şəkildə bölüşdürülməsini nəzərdə tutur ki, heç bir tərəf hegemon mövqe əldə edə bilməsin və beynəlxalq sistemdə dominantlıq riski minimuma endirilsin. Onun ilkin olaraq hegemonluğun qarşısının alınması mexanizmi kimi meydana çıxması, Vestfal sülhündən sonra Avropa siyasətində tarazlığın qorunması vasitəsi kimi rolu və zamanla regional çərçivədən çıxaraq qlobal xarakter alması ətraflı təhlil edilir. XX əsrdə bipolyar beynəlxalq sistem şəraitində ABŞ və SSRİ arasında formalaşan güc tarazlığı qlobal təhlükəsizliyə mühüm təsir göstərmişdir, xüsusilə nüvə qarşısının alınması, hərbi ittifaqların formalaşması və strateji sabitliyin təmin edilməsi baxımından. XXI əsrdə isə çoxqütblü dünya şəraitində texnoloji inkişaf, iqtisadi asılılıq, diplomatik münasibətlər, beynəlxalq təşkilatların rolu və regional güc mərkəzlərinin artması qüvvələr balansının yeni xüsusiyyətlərini müəyyən edir. Nəticə olaraq, qüvvələr balansı beynəlxalq sistemin sabitliyinin əsas determinantlarından biri olaraq qalır və gələcək tədqiqatlar onun konkret təsirlərini daha dərindən araşdırmalıdır.

**Açar sözlər:** Qüvvələr balansı, beynəlxalq təhlükəsizlik, bipolyar sistem, multipolyarlıq, qlobal güc mərkəzləri, realizm, neorealizm, hərbi balans, diplomatiya, qlobal sakitlik

* Müəllim, Bakı Dövlət Universiteti- Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsi; Bakı, Azərbaycan
E-mail: panaxov.anar@mail.ru
https://orcid.org/0009-0003-5418-8408

**Məqaləyə istinad:** Pənahov, A. [2026]. QÜVVƏLƏR BALANSININ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ. *“Metafizika” jurnalı, 9*(2), səh.264-273.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i2.264-273
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 12.01.2026 **Yenidən baxılıb**: 26.02.2026 **Təsdiqlənib**: 01.04.2026 **Dərc olunub**: 15.06.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# 1.Giriş

Qüvvələr balansı anlayışı beynəlxalq münasibətlər nəzəriyyəsi və praktikasında mərkəzi yer tutur. Əsrlər boyu güc balansı dövlətlər arasında qlobal və regional sabitliyin xarakterini müəyyən edib. Müasir dünya texnoloji tərəqqiyə və münaqişələrin diplomtik yolla həll edilməsinə baxmayaraq hələ də qüvvələr balansının siyasi iqtisadi hərbi nöqteyi nəzərdən məntiqi yolla həllinə tabedir.

Qüvvələr balansı tarixi ideya kimi bir dövlətin digərlərinin üzərində hökmranlığının qarşısını almaq üçün bir vasitə kimi yaranmışdır. 1648-ci il Vestfal sülhündən sonra Avropa siyasəti hər hansı bir dövlətin hegemonluğunun qarşısını almaq və tarazlığın qorunması ətrafında qurulmuşdur. Bu prinsip beynəlxalq sistem üçün bir növ özünü tənzimləmə mexanizminə çevrilmişdir.

Lakin zaman keçdikcə qüvvələr balansı artıq Avropa fenomeni deyildir. Dünya siyasətinin genişlənməsi və müstəqil dövlətlərin sayının artmasından sonra o qlobal xarakter daşımağa başlamışdır. Müstəmləkə imperiyalarının formalaşması sonradan isə onları parçalanması beynəlxalq təşkilatların həmçinin blokların yaranması qüvvələr balansını dinamik və çoxölçülü kateqoriyaya çevirmiş oldu.

XX əsrdə qüvvələr balansı aydın şəkildə bipolyar sistem şəraitində ABŞ-la SSRİ arasındakı qarşıdurma zamanı özünü biruzə vermişdir. Tarazlığın pozulması qarşısında olan qorxu böyük dövlətlərin strateqiyasını müəyyən edirdi. Soyuq müharibə buna klassik nümunə idi. Nüvə qarşısının alınması hərbi ittifaqlar NATO və Varşava sazişi nəin ki güc aləti həmçinin də qarşılıqlı sağ qalma zəmanəti kimi də xidmət edirdi.

Sovet İttifaqının parçalanması ikiqütblü eranın sona çatması ilə nəticələndi lakin qüvvələr balansı prinsipi ləğv olunmadı. Onun yerinə ABŞ-ın hakim olduğu birqütblü dünya ideyası ortaya çıxdı. Lakin XXI əsrin əvvəllərində məlum oldu ki mövcud rejim dünyada uzun müddətli sabitliyi təmin etmir. Bu da ona gətirdi ki dünya yenidən çoxqütblüyə doğru irəliləməyə başladı.

Bu gün qlobal təhlükəsizlik çoxsaylı güc mərkəzlərinin incə qarşılıqlı fəaliyyətindən asılıdır. Bunlar ABŞ, Çin, Rusiya, Avropa İttifaqı, Hindistan və digər aktorlardır. Bu mürəkkəb qarşılıqlı asılılıq sistemi yaratmaqla dünyanın bir hissəsində ki, tarazlığın pozulması dünyanın digər bir nöqtəsində pis nəticəyə səbəb ola bilər. Qüclər balansı təkcə siyasi yox həmçinin iqtisadi və texnoloji kateqoriyalara da çevrilir.

Müasir beynəlxalq münasibətlər göstərir ki qüvvələr balansına yalnız hərbi nöqteyi nəzərdən rəqabət kimi baxmaq lazım deil o həmçinin enerji kibermәkan ticarət və informasiya texnoloqiyalarının yeni təsir dairələrinin paylanması arenasına çevrilir. Beləliklə güc balansı yumşaq güc sferasına

keçid edir ki burada da rəqabət diplomatiya iqtisadiyyat və mədəniyyət vəasitəsi ilə həyata keçirilir.

Buna baxmayaraq tarazlığın pozulması təhlükəsi hələ də qalmaqdadır. Ukrayna və Yaxın Şərqdə baş verən münaqişələr həmçinin Cənubi Çin dənizindəki gərginlik və digər baş verən böhranlar qüvvələr balansında baş verən hər hansı bir dəyişiklik bütün bunlar beynəlxalq sistemdə sabitliyi poza biləcəyini sübut edən bir amil kimi göstərmək olar. Effektiv olmayan dialoq və kollektiv təhlükəsizlik mexanizmlərinin olmaması dünya ictimayyətinin həssas eskalasiya riski ilə qarşı qarşıya qoymuş olur.

Bu fonda BMT ATƏT ŞƏT və digər BRİKS kimi beynəlxalq qürumların rolu artır. Onların fəaliyyəti dövlətlər arasında etimadın pozulmasına yönələcək birtərəfli hərəkətlərin qarşısının alınmasına yönəlib. Bununla belə onu da vurğulamaq lazımdır ki bu strukturların effektivliyi daha çox iştirakçıların nəin ki siyasi iradəsindən həmçinin onların bir birilərinin qarşılıqlı maraqlarını tanımaqdan asılıdır.

Beləliklə qüvvələr balansı dünyanın yeni reallıqlarına uyğunlaşmaqla yanaşı beynəlxalq təhlükəsizliyin fundamenti olaraq qalmaqdadır. Onun təkamülünün və müasir təzahürlərinin dərk edilməsi beynəlxalq sistemdə baş verən prosesləri daha dərindən dərk etməyə imkan yaratmış olur. Növbəti tədqiqatlar XXI-ci əsrdə qüvvəllər balansının sabitlik və təhlükəsizliyə konkret təsirinin konkret nümunələrinin təhlilinə yönəldiləcəkdir.

## 2.Ədəbiyyat icmalı

### 2.1.Klassik realizm və güc balansı anlayışı

Hans J. Morgenthau (1948) qeyd edir ki, dövlətlər öz maraqlarına görə hərəkət edir və beynəlxalq sistemin təməl prinsipi güc balansıdır. Klassik realizm baxımından qüvvələr balansı münaqişələrin qarşısını almaq və hegemonluğun qarşısını almaq üçün əsas vasitədir. Tarixi nümunələr göstərir ki, XVII–XVIII əsrlərdə Avropada dövlətlərarası müharibələrin qarşısını almaqda qüvvələr balansı mühüm rol oynamışdır [Morgenthau, 1948, s.167-175].

### 2.2.Neorealizm və beynəlxalq sistemdə balansın rolu

Kenneth Waltz (1979) struktur realizm nəzəriyyəsində vurğulayır ki, beynəlxalq sistemin sabitliyi balans prinsipi ilə qorunur. Bipolyar sistemdə ABŞ və SSRİ arasındakı qarşılıqlı güc tarazlığı nüvə silahlarının qarşılıqlı məhdudlaşdırılması və hərbi ittifaqlar (NATO və Varşava Paktı) vasitəsilə qlobal təhlükəsizliyi təmin etmişdir. Bu yanaşma göstərir ki, balans yalnız hərbi deyil, strateji və diplomatik səviyyədə də önəmlidir [Waltz, 1979, s.116-128].

### 2.3.Bipolyar sistem və XX əsrdə qüvvələr balansı

XX əsrdə bipolyar sistem şəraitində qüvvələr balansı konkret şəkildə ABŞ–SSRİ qarşıdurmasında müşahidə edilmişdir. Soyuq Müharibə dövründə nüvə

silahlarının mövcudluğu və qarşılıqlı qorxu siyasəti dövlətləri hərbi münaqişədən çəkindirmişdir. Bu, balans prinsiplərinin qlobal təhlükəsizlikdə effektivliyinə real nümunədir [Waltz, 1979, s.161-170].

**2.4.Müasir çoxqütblü dünya və qlobal güc dinamikası**

XXI əsrdə dünya artıq çoxqütblü xarakter almışdır. ABŞ, Çin, Rusiya, Avropa İttifaqı və Hindistan kimi güc mərkəzləri arasında mürəkkəb qarşılıqlı asılılıq mövcuddur. Beynəlxalq tədqiqatlar göstərir ki, bu qarşılıqlı təsir yalnız hərbi deyil, həm də iqtisadi və texnoloji sahələrdə sabitliyi təmin edir. Məsələn, Çin və ABŞ arasındakı ticarət münaqişəsi və texnoloji rəqabət qlobal qüvvələr balansına birbaşa təsir göstərir [Baylis, Smith & Owens, 2020, s.92-105].

**2.5.Qüvvələr balansının yumşaq güc və diplomatiya aspektləri**

Joseph S. Nye (2004) göstərir ki, güc balansı təkcə hərbi amillərlə məhdudlaşmır. Diplomatiya, iqtisadi təsir və mədəni nüfuz ("yumşaq güc") da qüvvələr balansının əsas komponentinə çevrilmişdir. Məsələn, Avropa İttifaqının genişlənmə siyasəti və beynəlxalq institutlar vasitəsilə etimadın qurulması balansın yumşaq güc aspektinə nümunədir [Nye, 2004, s.5-11].

**2.6.Tənqidi perspektiv və mövcud tədqiqatların boşluqları**

Hazırkı tədqiqatlar qüvvələr balansının tarixi və müasir rolunu analiz etsə də, XXI əsrdə texnoloji, kibermekan və informasiya müharibələrinin balansın yeni təzahürlərinə təsiri hələ tam öyrənilməyib. Bu boşluq göstərir ki, gələcək tədqiqatlar yalnız hərbi aspektlərlə məhdudlaşmamalı, həm də iqtisadi, diplomatik və texnoloji faktorları əhatə etməlidir [Keohane & Nye, 2012, s.19-25].

**3.Metodologiya**

Bu məqalə beynəlxalq münasibətlər nəzəriyyəsi çərçivəsində aparılmış nəzəri- analitik və konseptual xarakterli tədqiqatdır. Tədqiqatın əsas məqsədi qüvvələr balansı anlayışının beynəlxalq təhlükəsizliyin formalaşmasında və saxlanmasında rolunu müxtəlif tarixi mərhələlər və müasir beynəlxalq sistem kontekstində sistemli şəkildə təhlil etməkdir. Bu məqsədlə empirik ölçmələrə deyil, keyfiyyət yönümlü elmi metodlara üstünlük verilmişdir.

Tədqiqatda ilk növbədə tarixi-analitik metod tətbiq edilmişdir. Bu metod vasitəsilə qüvvələr balansı konsepsiyasının Vestfal sülhündən başlayaraq bipolyar beynəlxalq sistem dövrünə və XXI əsrin çoxqütblü strukturuna qədər keçdiyi inkişaf mərhələləri araşdırılmışdır. Tarixi yanaşma anlayışın beynəlxalq təhlükəsizlik mexanizmi kimi formalaşmasını və dəyişən qlobal şərtlərə uyğunlaşmasını izah etməyə imkan vermişdir.

Bununla yanaşı, müqayisəli-nəzəri metoddan istifadə olunmuşdur. Klassik realizm, neorealizm və müasir çoxqütblü sistem yanaşmaları çərçivəsində qüvvələr balansına dair fərqli interpretasiyalar müqayisə edilmişdir. Bu metod nəzəri yanaşmaların beynəlxalq təhlükəsizlik anlayışına təsirini, eləcə də

onların izah imkanlarının məhdudiyyətlərini müəyyənləşdirməyə şərait yaratmışdır.

Tədqiqat həmçinin sistemli və struktur yanaşma əsasında aparılmışdır. Beynəlxalq münasibətlər qarşılıqlı asılı aktorlar və çoxsəviyyəli güc mexanizmlərindən ibarət kompleks sistem kimi nəzərdən keçirilmişdir. Bu çərçivədə regional güc balansındakı dəyişikliklərin qlobal təhlükəsizlik arxitekturasına təsiri qiymətləndirilmişdir.

Əlavə olaraq, keyfiyyət yönümlü kontent analizi metodu tətbiq edilmişdir. Akademik ədəbiyyat, elmi məqalələr, beynəlxalq təşkilatların rəsmi sənədləri (BMT, NATO, ATƏT, ŞƏT və s.) və analitik hesabatlar sistemli şəkildə təhlil olunmuşdur. Bu yanaşma mövcud tədqiqatların ümumiləşdirilməsinə və qüvvələr balansının müasir beynəlxalq təhlükəsizlik mühitindəki rolunun daha dərindən dərk edilməsinə imkan yaratmışdır.

Beləliklə, seçilmiş metodoloji çərçivə qüvvələr balansının beynəlxalq təhlükəsizlik sisteminə təsirini çoxölçülü, nəzəri cəhətdən əsaslandırılmış və konseptual baxımdan ardıcıl şəkildə araşdırmağa imkan vermişdir.

**4.Əsas təhlil**

Qüvvələr balansı anlayışı beynəlxalq təhlükəsizliyin formalaşmasında həlledici mexanizmlərdən biri kimi çıxış edir. Lakin onun təhlükəsizliyə təsiri avtomatik və birmənalı xarakter daşımır. Tarixi və müasir təcrübə göstərir ki, balansın mövcudluğu bəzən sabitlik yaratsa da, müəyyən hallarda əksinə, gərginliyin dərinləşməsinə də səbəb ola bilir. Bu isə qüvvələr balansının mahiyyətinə daha çevik və çoxölçülü yanaşmanı zəruri edir.

Ənənəvi realist yanaşmaya görə, güclər arasında nisbi tarazlıq müharibə riskini azaldır və dövlətləri daha ehtiyatlı davranmağa məcbur edir. Bu baxımdan soyuq müharibə dövrü klassik nümunə kimi göstərilə bilər. ABŞ və SSRİ arasında formalaşmış strateji balans birbaşa hərbi toqquşmanın qarşısını almış, nüvə qarşılıqlı məhvetmə qorxusu təhlükəsizliyin əsas dayağına çevrilmişdir. Lakin bu tarazlıq real təhlükəsizlikdən daha çox, davamlı gərginlik üzərində qurulmuş nisbi sabitlik idi.

Digər tərəfdən, qüvvələr balansının pozulması halları beynəlxalq təhlükəsizlik üçün daha ciddi risklər yarada bilir. Bir aktorun sürətlə üstünlük əldə etməsi digər dövlətləri balansı bərpa etmək üçün alternativ vasitələrə əl atmağa məcbur edir. Bu isə silahlanma yarışını, regional bloklaşmanı və proksi münaqişələri stimullaşdırır. Belə vəziyyətlərdə təhlükəsizlik paradoksal xarakter alır: dövlətlər öz təhlükəsizliklərini artırmağa çalışdıqca ümumi təhlükəsizlik mühiti daha da zəifləyir.

Müasir beynəlxalq sistemdə qüvvələr balansı təkcə hərbi potensialla ölçülmür. İqtisadi güc, texnoloji üstünlük, enerji resurslarına nəzarət və informasiya imkanları təhlükəsizlik balansının əsas elementlərinə çevrilmişdir. Xüsusilə kibertəhlükəsizlik və texnoloji asılılıqlar dövlətlər arasında yeni güc

asimmetriyaları yaradır. Bu isə klassik balans mexanizmlərinin effektivliyini qismən azaldır və təhlükəsizliyin yeni təhdid formalarını ortaya çıxarır.

Regional təhlükəsizlik mühitlərində qüvvələr balansının təsiri daha açıq şəkildə müşahidə olunur. Məsələn, balansın zəif olduğu regionlarda münaqişə riski daha yüksək olur və xarici müdaxilə ehtimalı artır. Əksinə, regional güclər arasında müəyyən tarazlıq mövcud olduqda təhlükəsizlik daha çox dialoq və qarşılıqlı çəkindirmə üzərində qurulur. Lakin bu cür balanslar da daimi deyil və kiçik dəyişikliklər belə sistemin pozulmasına gətirib çıxara bilər.

Beynəlxalq təşkilatlar və kollektiv təhlükəsizlik mexanizmləri qüvvələr balansının təhlükəsizliyə mənfi təsirlərini yumşaltmaq məqsədi daşıyır. Bununla belə, bu strukturların effektivliyi əsas güc mərkəzlərinin siyasi iradəsindən birbaşa asılıdır. Əgər böyük güclər balansı öz maraqları naminə manipulyasiya edirsə, institusional mexanizmlər real təhlükəsizlik təminatçısına çevrilə bilmir.

Nəticə etibarilə, qüvvələr balansı beynəlxalq təhlükəsizliyin nə tam təminatçısı, nə də birbaşa təhdidi kimi qiymətləndirilə bilər. Onun təsiri konkret tarixi şəraitdən, aktorların davranış modellərindən və mövcud beynəlxalq institutların funksionallığından asılıdır. Bu səbəbdən beynəlxalq təhlükəsizliyin qorunması üçün balansın mexaniki şəkildə saxlanılması deyil, onun idarə olunması və diplomatik alətlərlə tamamlanması daha məqsədəuyğun hesab edilməlidir.

## 5.Potensial ssenarilər

### 5.1.Ssenari 1:

İdarə olunan çoxqütblü stabillik

Böyük güclər - ABŞ, Avropa, Çin və Rusiya - açıq hərbi qarşıdurmadan qaçaraq diplomatik və iqtisadi çəkindirmə vasitəsilə tarazlığı qoruyur. NATO və digər beynəlxalq institutlar eskalasiyanın qarşısını alır, hər hansı hərbi addım ciddi siyasi və iqtisadi risklərlə qiymətləndirilir.

Təsir: Qlobal və regional sabitlik nisbi səviyyədə saxlanır, lokal gərginliklər effektiv şəkildə idarə olunur.

Risklər: Tarazlıq kövrəkdir; bir səhv hesablamanın geniş eskalasiyaya səbəb olma ehtimalı yüksəkdir. Bu ssenari yalnız dövlətlərin strateji məntiqi və qarşılıqlı etimada əsaslanır.

### 5.2.Ssenari 2:

Bloklaşma və regional gərginliyin yüksəlməsi

Böyük güclər iki və ya daha çox blok ətrafında sıxlaşır: ABŞ və Avropa liberal-demokratik oxu qorumağa çalışır, Çin və Rusiya isə alternativ siyasi-iqtisadi platforma formalaşdırır. Neytral və orta güclər manevr imkanlarını daraldır, regional qarşıdurmalar artaraq qlobal təhlükəsizliyə təsir edir.

Təsir: Sabitlik daha çox rəqabət üzərində qurulur; qarşıdurma dolayısı ilə yayılır.

Risklər: Proksi münaqişələr, iqtisadi və texnoloji sanksiyalar, bloklar arasında hərbi təzyiq güclənir. Balans artıq sabitlik deyil, risklərin idarə edilməsi mexanizmi kimi çıxış edir.

**5.3.Ssenari 3:**

Asimmetrik və texnoloji rəqabət

Qüvvələr balansı klassik hərbi üstünlükdən daha çox texnoloji, iqtisadi və informasiya sahələrinə keçib. ABŞ və Çin süni intellekt, kiberməkan, strateji texnologiyalar və enerji resursları sahəsində üstünlük uğrunda rəqabət aparır. Avropa çevik iqtisadi və texnoloji diplomatiya vasitələri ilə balansı qoruyur, Rusiya isə asimmetrik və çevik strategiyalardan istifadə edir.

Təsir: Açıq müharibə olmadan təhlükəsizlik mühiti dəyişir; görünməyən risklər artaraq qlobal sabitliyi sarsıda bilər.

Risklər: Kiberhücumlar, strateji infrastrukturun hədəfə alınması və iqtisadi asimmetriya dövlətlərin idarəedilə bilməyən riskləri ilə nəticələnir. Bu ssenari göstərir ki, güclər balansı yalnız hərbi üstünlükdən deyil, texnoloji və iqtisadi gücdən də asılıdır.

**5.4.Ssenari 4:**

Balansın dağılması və sistem böhranı

Böyük güclərdən biri strateji üstünlük əldə edir və mövcud balans mexanizmləri sıradan çıxır. ABŞ, Çin və Rusiya arasında eskalasiya riski artaraq regional və qlobal gərginliyi bir-birini təşviq edən bir dövrəyə çevirir.

Təsir: Təhlükəsizlik mühiti proqnozlaşdırıla bilməz; regional qarşıdurmalar qlobal böhran potensialı daşıyır.

Risklər: Qlobal münaqişə, institutların funksionallığının zəifləməsi, hərbi və iqtisadi qeyri-sabitlik. Bu ssenari balansın idarəedilmədiyi hallarda yaranan ən pessimist vəziyyəti təsvir edir.

**6.Yekun müşahidə**

Bu ssenarilər göstərir ki, qüvvələr balansı beynəlxalq təhlükəsizliyə təkcə sabitlik gətirmir. Onun təsiri böyük güclərin davranışına, texnoloji və iqtisadi üstünlüklərinə, həmçinin beynəlxalq institutların səmərəliliyinə bağlıdır. Müasir dövrdə əsas məsələ balansın mövcudluğu deyil, onun dinamik idarə olunması və strateji alətlərlə tamamlanmasıdır.

**7.Nəticə**

Bu tədqiqat göstərdi ki, qüvvələr balansı beynəlxalq təhlükəsizlik üçün təkcə hərbi və diplomatik mexanizmlərlə məhdudlaşmır, həmçinin iqtisadi, texnoloji və informasiya amillərini də əhatə edir. Tarixi təhlil sübut edir ki, Vestfal sülhündən bipolyar ABŞ–SSRİ sisteminə qədər qüvvələr balansı qlobal stabilliyin əsas determinantı olmuşdur, lakin XXI əsrdə balansın təzahürü daha mürəkkəb və dinamikdir.

Potensial ssenarilər göstərdi ki, idarə olunan çoxqütblülük sabitliyi təmin edir, bloklaşma və regional qarşıdurma riskləri artırır, asimmetrik texnoloji güc

görünməyən təhlükələri gücləndirir, tarazlığın pozulması isə qlobal böhrana yol aça bilər. Bu nəticələr vurğulayır ki, qüvvələr balansının mövcudluğu kifayət deyil; onun strateji idarəsi, qarşılıqlı etimad və beynəlxalq institutların effektivliyi təhlükəsizliyin qorunması üçün həlledici amildir.

Gələcək tədqiqatlar bu balansın konkret regional və qlobal təsirlərini, texnoloji və iqtisadi faktorlarla qarşılıqlı əlaqəsini daha dərindən araşdırmalıdır. Bu yanaşma yalnız mövcud güc strukturlarını anlamayıb, həm də gələcək təhlükəsizlik strategiyalarını formalaşdırmağa imkan verir.

## 8.ƏDƏBİYYAT

**1.** Morgenthau, H. J. (1948). *Dövlətlər arasında siyasət: Güc və sülh uğrunda mübarizə.* New York: Alfred A. Knopf.
**2.** Waltz, K. N. (1979). *Beynəlxalq siyasət nəzəriyyəsi.* Reading, MA: Addison-Wesley.
**3.** Carr, E. H. (1939). *İyirmi illik böhran: 1919–1939: Beynəlxalq münasibətlərin öyrənilməsinə giriş.* London: Macmillan.
**4.** Little, R. (2007). *Beynəlxalq münasibətlərdə güc balansı.* Cambridge: Cambridge University Press.
**5.** Kaya, H. (2025). Güc balansı nəzəriyyəsi: Müttəfiqliklər həm müharibənin səbəbi, həm də qoruyucu vasitə kimi. *Beynəlxalq Münasibətlər və Siyasi Elmlər Jurnalı, 14*, 65–88.
**6.** Han, Z. (2020). Çinin yüksəlişi və güc balansı siyasəti. *Çin Beynəlxalq Siyasət Jurnalı, 13*(1), 1–26.
**7.** Brzezinski, Z. (1997). *Böyük şahmat taxtası: ABŞ üstünlüyü və geosiyasi imperativlər.* New York: Basic Books.

## REFERENCES

**1.** Morgenthau, H. J. (1948). *Politics among nations: The struggle for power and peace*. New York: Alfred A. Knopf. (in English)
**2.** Waltz, K. N. (1979). *Theory of international politics*. Reading, MA: Addison-Wesley. (in English)
**3.** Carr, E. H. (1939). *The twenty years' crisis: 1919–1939: An introduction to the study of international relations*. London: Macmillan. (in English)
**4.** Little, R. (2007). *The balance of power in international relations*. Cambridge: Cambridge University Press. (in English)
**5.** Kaya, H. (2025). Balance of power theory: Alliances as both cause of war and protective mechanism. *International Relations and Political Science Journal, 14*, 65–88. (in English)
**6.** Han, Z. (2020). China's rise and balance of power policy. *Chinese Journal of International Politics, 13*(1), 1–26. (in English)
**7.** Brzezinski, Z. (1997). *The grand chessboard: American primacy and geopolitical imperatives*. New York: Basic Books. (in English)